# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARI ÜZRƏ İQLİM DƏYİŞMƏLƏRİNƏ HƏSSASLIQ İNDEKSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Rafiq Verdiyev[1], Aysel Quliyeva[1], Şəhla Hüseynli[1], Xəyalə Quliyeva[1], Rəşad Verdiyev[2]**

*[1]Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidməti, rafig2000@mail.ru*

*[2] Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Akadsemik Həsən Əliyev adına Coğrafiya İnstitutu*

Tədqiqat işinin əsas məqsədi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında son 30 ildə baş verən iqlim dəyişmələri və eyni zamanda erməni işğalı nəticəsində bölgənin su resurslarına, su ekosistemlərinə, iqtisadiyyata və digər sahələrə edilən təsirləri müxtəlif meyarlar üzrə qiymətləndirməklə müəyyən etməkdən ibarətdir.

Qiymətləndirmə üçün müxtəlif beynəlxalq indikatorlardan istifadə olunmuşdur.

İlk növbədə iqlim dəyişmələrinin ərazidə son 30 ildə başvermə intensivliyi indeksi və sonra isə iqlim dəyişmələrinə həssaslıq indeksi hesablanmışdır. Eyni zamanda iqlim dəyişmələrinə bölgənin uyğunlaşma potensialını səciyyələndirən indeks qiymətləndirilmiş və 3 indeksin birgə ümumiləşdirilməsi əsasında iqlim dəyişmələrinin təsirinə məruz qalma indeksi hesablanmışdır.

Tədqiqatlar göstərir ki, iqlim dəyişmələri nəticəsində temperaturun artması və yağıntının azalması səbəbindən bölgənin su resursları Kiçik Qafqazın və ölkənin digər ərazilərində olduğu kimi 15%-dək azalmışdır və gələcəkdə iqlim senariləri üzrə bu prosesin davam etməsi gözlənilir. İqlimin təsiri və işğal nəticəsində meşələrin deqradasyası və ekosistemə edilən digər təsirlər nəticəsində bir sıra komponent üzrə iqlim dəyişmələrinin başvermə intensivliyi indeksi burada digər bölgələrlə müqayisədə daha yüksək olmuşdur.

İqlim dəyişmələrinin təsirinə məruzqalma indeksinin müxtəlif sərtlik hüdudları üzrə su və ərzaq təchizatı, ekosistem və s. sahələrdə həyata keçirilməsi vacib olan uyğunlaşma tədbirləri müəyyən edilmiş və prioritetləşdirilmişdir.